Təqvim yada salır

# Qədim Türk dövlətçiliyinin xilaskarı – əfsanəvi Atatürk

**Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün əbədiyyətə qovuşmasından 84 il ötür. Dünən qardaş ölkənin qədirbilən xalqı unudulmaz millət atasının xatirəsini dərin hüzn və sonsuz ehtiramla yad etdi.**



Türk dünyasının nadir tarixi şəxsiyyətlərindən olan böyük Atatürkün xatirəsi ölkəmizdə də daim böyük ehtiramla yad olunur. Azərbaycanı ürəkdən sevən, "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" deyən Mustafa Kamalın ölməz xatirəsi hər bir azərbaycanlının da qəlbində özünə yer etmişdir. Ölməz türk liderinin dünyasını dəyişdiyi gün hər il ölkəmizdə keçirilən müxtəlif anım tədbirlərində sayğı-sevgi ilə qeyd olunur. Atatürkü anım günü mövzusu Azərbaycan mediasında da geniş əks olunur.

Türkiyənin Baxçaşəhər Üniversitetinin professoru Nuri Yazıcının redaksiyamıza göndərdiyi yazıda Mustafa Kamal Atatürkün çağdaş Türkiyə dövlətçiliyi və Türk dünyası qarşısında tarixi xidmətlərindən söz açılır:

– Mustafa Kamal Atatürk Qurtuluş savaşının qalib baş komandanı, modernləşmə hərəkatının lideri, inqilabların fəlsəfəsini əks etdirən fikirləri və çıxışları ilə tanınmış bir millət lideridir. Onun təkcə Türk tarixində deyil, dünya tarixində də iz qoymuş xidməti modern bir dövlət qurmasıdır. Bu missiyası ilə o, nəinki bir xalqın tarixini dəyişdirdi, həm də böyük dövlətlərin məkrli Yaxın Şərq layihəsini pozmuş oldu.

Mustafa Kamal tələbəlik illərindən millətinin gələcəyi ilə bağlı fikirlər formalaşdırıb, siyasi fəaliyyətlə məşğul olub, gələcəyə cavabdeh olan bir dövlət xadiminin mükəmməl obrazını yaradıb. Onun zəka və iradəsi sayəsində teokratik-monarxiya imperiyası olan Osmanlı xanədanı tarixi dünyəvi, demokratik və milli dövlətə çevrilmişdir. 23 aprel 1920-ci ildə Türkiyə Böyük Millət Məclisinin açılışı, yeni Türk dövlətinin yaranma tarixi kimi qəbul edilir. Bu tarixi məclis yeni konstitusiya hazırladı və bu anayasada ilk dəfə "Türkiyə dövləti" ifadəsi əksini tapdı . Bu konstitusiyanın 1-ci və 2-ci maddələrində suverenliyin qeyd-şərtsiz millətə məxsus olduğu, icra və qanunvericilik səlahiyyətlərinin isə "millətin yeganə və həqiqi nümayəndəsi" olan TBMM-yə aid olduğu bildirilirdi. Mustafa Kamal Paşanın təbirincə desək, "Belə bir hökumət milli suverenlik prinsipinə əsaslanan xalq hökumətidir – cümhuriyyətdir".

TBMM 1 noyabr 1922-ci ildə vaxtı keçmiş, məğlub olmuş sultanlığı ləğv etdi. Bununla yeni bir dövr başlandı. Qərb qarşısında məzlum, gücsüz, istismara məruz qalan dövlət və cəmiyyət olmaq dövrü artıq başa çatdı. Mustafa Kamal Atatürk yeni türk dövlətinin siyasətini "milli siyasət" olaraq təyin etdi.

Bu siyasət ötən bir əsrdə bütün milli qüvvələri milli sərhədlər daxilində toplayaraq millətin və ölkənin xoşbəxtliyini və rifahını təmin edir. Xaricdəki digər dövlətlərlə müasir və insani münasibətlərin qurulması qarşılıqlı hörmət və bərabərlik prinsipinə əsaslanır. Yeni dövlət quruluşu, xilafətin ləğvi, hüquqi müstəvidə yeni qanunların qüvvəyə minməsi və hüquq sahəsində dünyəvi dövlət və dünyəvi cəmiyyət siyasətinin sübutudur.

Mustafa Kamal Atatürk bu demokratik siyasət anlayışını institutsionallaşdırmaq və onu əbədi etmək istəyirdi: Çoxpartiyalı siyasi həyata keçmək və qadınlara siyasi hüquqlar vermək cəhdləri demokratik dövlət və demokratik cəmiyyət siyasətinin sübutudur. Məşhur Qərb siyasətçilərinin də dedikləri kimi, "Atatürk Qərb dünyasındakı intibah, islahat, elm və düşüncə inqilabı və sənaye inqilabını bir insan ömrünə sığdırdı".

*Hazırladı:*
***Namiq ƏHMƏDOV,***
*"Xalq qəzeti"*